# Doğma ölkəmizdə

## Azərbaycan dili: Dövlət Proqramının icrası ilə bağlı işçi qrupunun növbəti iclası

Prezident İlham Əliyevin «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında» 2013-cü il 9 aprel tarixli sərəncamının icrasını həyata keçirmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunda AMEA Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi, akademiyanın müxbir üzvü Kamal Abdullayevin sədrliyi ilə yaradılmış yeni işçi qrupunun növbəti iclası keçirilmişdir. Sərəncamın icrası ilə bağlı işçi qrupunda dövlət təşkilatlarının bir sıra nümayəndələri də təmsil olunmuşlar.

## Əhalinin gəlirləri artır

Cari ilin yanvar-may aylarında əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,8 faiz artaraq 13 milyard manata çatmış, hər nəfərə düşən həcmi orta hesabla 1403,2 manat və ya ayda 280,6 manat təşkil etmişdir.

Hər nəfərə düşən gəlir 5,4 faiz artaraq istehlak qiymətlərinin bahalaşması 3,7 faiz bəndi üstələmiş və nəticə olaraq əhalinin alıcılıq qabiliyyəti əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,7 faiz yüksəlmişdir. Əhalinin sərəncamında qalan gəlirlər 11,8 milyard manat təşkil edərək əvvəlki ilin eyni dövrünə nisbətən 6,8 faiz artmışdır.

## Əmək yarmarkaları iş yerləri sayının artdığını göstərir

Dövlət Məşğulluq Xidməti iş axtaran və işsiz vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin, onların təminatının gücləndirilməsi məqsədilə ölkənin rayon və şəhərlərində əmək yarmarkalarının keçirilməsini davam etdirir. Cari ilin 6 ayında 12 şəhər və rayonda keçirilən əmək yarmarkalarında 189 özəl sektora aid, ümumilikdə 402 müəssisə tərəfindən 3313 boş iş yeri təqdim edilmişdir. 1248 nəfərə boş, həmçinin 20 nəfərə kvota üzrə iş yerlərinə göndəriş verilmiş, 124 nəfər peşə hazırlığı kurslarına, 543 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

## Qeyri neft məhsullarının xarici ölkələrə ixracı genişlənir

Ölkəmizin iqtisadi inkişafı sürətləndikcə xarici ölkələrlə ticarət əlaqələrimiz də genişlənir. Bu ilin yanvar-aprel aylarında Azərbaycanda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər dünyanın 132 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatı aparıblar. 83 dövlətə əmtəə ixrac olunub, 121-dən isə müxtəlif məhsullar idxal edilib. Xarici ölkələrlə 11.567,3 milyon dollar məbləğində ticarət, o cümlədən 3.148,4 milyon dollarlıq idxal və 8.418,9 milyon dollarlıq ixrac əməliyyatları aparılıb, nəticədə ölkəmizin xeyrinə 5.270,5 milyon dollarlıq müsbət saldo yaranıb. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ixracın həcmi 9,4, idxalın həcmi isə 6,9 faiz artıb.

**Topladı: N. ATAKİŞİYEV.**

# Təqdimat mərasimi

Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu 2013-cü ilin 27 iyun tarixində növbəti qrant müsabiqəsi elan etmişdir. Bununla əlaqədar olaraq Respublikanın bir sıra şəhər və rayonlarında gənclər üçün müsabiqə şərtləri və müraciət qaydaları barədə təqdimatlar keçirilir. Bu məqsədilə 8 iyul 2013-cü il tarixdə Qəbələ rayon Mədəniyyət Mərkəzinin konfrans zalında Qəbələ və İsmayıllı rayonlarının nümayəndələrinin iştirakı ilə təqdimat mərasimi keçirilmişdir.



Keçirilən təqdimat mərasimində 50 nəfər aktiv gənc və gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov iştirakçıları salamlayaraq təqdimatın mahiyyəti barədə məlumat verdi. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun şöbə müdiri Vaqif Seyidbəyov məlumat verərək bildirdi ki, növbəti qrant müsabiqəsi də gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətlərin stimullaşdırılmasını təmin edərək Azərbaycan gəncliyinin inkişafını daha da intensivləşdirəcəkdir. Fondun elan etdiyi qrant müsabiqəsi gənclərin, gənclər təşkilatlarının elmi-tətbiqi, sosial əhəmiyyətli və idarəetmə sahəsindəki innovativ ideyalarını dəstəkləyəcək, dövlətin və cəmiyyətin inkişafında gənc nəslin təşəbbüskarlığını və iştirakını artıracaqdır. Vaqif Seyidbəyov həmçinin bildirdi ki, gənclər arasında keçirilmiş sorğu vasitəsilə biz gənclərin Fonddan gözləntilərini və onları maraqlandıran sahələri öyrəndik. Sorğunun nəticələrinə əsasən biz növbəti qrant müsabiqəsinin istiqamətlərini, yeni prioritet sahələrini müəyyən etdik. Keçirilmiş sosial sorğunun nəticələrinə görə gənclər və idman sahəsində gənclərin təşəbbüslərinə, əlil gənclərlə bağlı görülən işlərə, xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin ideyalarına və təkliflərinə, region gənclərinin inkişafının təmin edilməsi üçün bölgələrdəki gənclər təşkilatları ilə birbaşa əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət ayrılacaqdır.

Tədbirin sonunda gəncləri maraqlandıran suallara ətraflı cavablar verilmişdir.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**Gənclər və İdman İdarəsinin baş məsləhətçisi.**

# Mübarək Ramazan və Oruc haqqında

Artıq müqqədəs Ramazan ayı başlanmışdır. Bu ay elə bir aydır ki, əvvəli rəhmət, ortası məğfirət, sonu isə cəhənnəm əzabından qurtulmaqdır.

Qurani-Kərimin Bəqərə surəsinin 183-cü ayəsində buyrulur: «Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə fərz edildiyi kimi, sizə də fərz qılındı ki, siz pis əməllərdən çəkinəsiniz Həzrəti Peyğəmbərimiz (s.ə. v): «Oruc tutun ki, sağlam olasınız» deyə buyurur. Mədə və həzm orqanları oruc sayəsində dincəlmə və istirahət fürsəti əldə etmiş olur. Oruc islamin şərtlərindən biridir. Dini termin olaraq oruc, tutmağa gücü və yaşı çatan kimsələrin niyyət edərək, dan yerinin ağarmasından etibarən günəş batana qədər orucu pozan şeylərdən qorunmaq deməkdir.

Oruc nəfsi tərbiyə məktəbidir. Yalnız mədəni ac və susuz buraxmaqla kamil bir oruc tutulmuş olmaz, məqbul bir oruc, bədəndəki bütün üzvləri haram və şübhəlilərdən qoruyaraq nəfsi tərbiyə etməkdir.

Həzrəti Peyğəmbərimiz buyurur ki: «Oruc qalxandır. Heç biriniz oruc tutduğu gün pis (çirkin) söz danışmasın. Əgər biri ona söyər və ya söz atarsa: «Mən orucluyam desin».

Hədislərdən birində: «İnsanın hər yaxşı əməlinə qat-qat cavab verilir. Bir yaxşılıq on qatından yeddi yüz qatına qədər artır».Allah təala, «Amma oruc başqa. O mənim üçündür. Mükafatını da mən verərəm. Oruclu yeməyini və şəhvətini mənim üçün tərk edir» buyurmuşdur.

«Oruclu üçün iki sevinc anı vardır: biri iftar etdiyi zamankı sevinci, digəri də orucunun savabıyla Rəbbinə qovuşduğu andır».

«Kim fəzilətinə inanaraq və qarşılığını Allahdan gözləyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar». Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Orucluq dövründə adam dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu vaxt şeytan onun qəlbinə yol tapa bilmir. Peyğəmbərimiz buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlarda zəncirdə olar.

Döyüşdə və əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini tutmalı və ya fidiyə verməlidirlər. Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsul yedizdirməkdir.

Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

Möhtərəm möminlər! tutacağımız orucun kamilliyini qorumalıyıq. Hədisi şərifə diqqət edin: «Qncə oruc tutanlar vardır ki, orucundan ona quru bir aclıqdan başqa bir şey qalmaz! Gecələri necə (təravih və təhəccüd) namazı qılanlar vardır ki, namazlarından onlara qalan yalnız yuxusuzluqdur» (İbni macə).

Mübarək Ramazanlı ləyaqətlə qarşılayıb, ləyaqətlə yola salaq!

**Ağahüseyn TAHİROV,**
**İslam Universitetinin məzunu, hacı.**